# İsa Həbibbəyli UNESCO-nun Üzeyir Hacıbəyli ilə bağlı tədbirində çıxış edib






Dahi Azərbaycan bəstəkarı akademik Üzeyir Hacıbəylinin 140 illik yubileyi UNESCO-nun mənzil-qərargahında qeyd olunub. AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin də iştirak etdiyi tədbir Azərbaycanın UNESCO yanındakı daimi nümayəndəliyinin və Fransa-Azərbaycan Dialoqu Assosiasiyasının birgə təşəbbüsü ilə keçirilib.

UNESCO yanında daimi nümayəndə Elman Abdullayev çıxış edərək bildirib ki, Üzeyir Hacıbəylinin 140 illiyinin qeyd edilməsi bəstəkarın həyat və yaradıcılığına ehtiramı nümayiş etdirir. Bu, eyni zamanda musiqinin birləşdirici gücünü, mədəniyyətlər arasında dialoqun qurulmasına və ümumbəşəri dəyərlərə verilən qiyməti göstərir. Daimi nümayəndə Üzeyir Hacıbəylinin Azərbaycanın milli musiqi kimliyinin formalaşmasında müstəsna rol oynamasından danışıb.

Sonra Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik İsa Həbibəyli çıxış edərək akademik Üzeyir Hacıbəylinin həyat və yaradıcılığından ətraflı bəhs edib.

Akademik İsa Həbibbəyli bildirib ki, Üzeyir Hacıbəylinin əsərləri Azərbaycan sərhədlərini aşaraq, dünya səhnələrində uğurla nümayiş olunub və xalqlar arasında mədəni körpüyə çevrilibdir.

O, yalnız bəstəkar deyil, həm də görkəmli alim, maarifçi, pedaqoq və ictimai xadim idi. Onun təşəbbüsü ilə əsası qoyulan Azərbaycan Dövlət Konservatoriyası - Bakı Musiqi Akademiyası bir çox musiqiçi yetişdirib. O, həmçinin Azərbaycan Milli Elmlər Akademiyasının ilk təsisçilərindən biri olub.

Qeyd edilib ki, UNESCO kimi beynəlxalq mədəniyyət platformasında Üzeyir Hacıbəylinin 140 illik yubileyinin keçirilməsi onun irsinin yalnız Azərbaycan üçün deyil, bütün bəşəriyyət üçün əhəmiyyət daşıdığını sübut edir.

Akademik İsa Həbibbəyli Azərbaycanın UNESCO yanındakı daimi nümayəndəsi Elman Abdullayevə akademik Zemfira Səfərovanın bu yaxınlarda AMEA-nın "Elm" nəşriyyatında ingilis dilində nəşr olunmuş "Üzeyir Hacıbəyli: həyat və yaradıcılıq karyerası" kitabını hədiyyə edib.

Tədbir konsert proqramı ilə müşayiət olunub.